# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 304** **Bakı şəhəri, 5 sentyabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 829-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62; 2022, № 5, maddələr 550, 567; 2023, № 2, maddə 293, № 5, maddə 724) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlir-lərinin proqnozlaşdırılması Qaydası"nın 4.10.11-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3-cü abzasda (hər iki halda) "həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtonəqliyyat vasitələrinin sahibləri olan qeyri-rezident" sözləri "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələrinin sahibləri və ya həmin nəqliyyat vasitəsini idarə edən" sözləri ilə əvəz edilsin.

**2.** 3.4-cü abzasın sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 3.5-ci abzas ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

---

Xalq qəzeti.- 2023.- 6 sentyabr.- S.6.